# Alman-Azərbaycan tarixi-mədəni əlaqələri

*Alimlərin maraqlı faktoloji və statistik materiallarla zəngin tarixi əsaslı məruzələrinə əsasən, düşünmək olar ki, bütöv bir yüzillik ərzində koloniyada vyutenberqlilərin Azərbaycan torpağında yaşayışına dair salnamə böyük məsuliyyət və səliqə ilə aparılmışdır.*

*Nəsildən-nəslə koloniyada bütöv sülalələr yaranmışdı. Forerlər, Qummellər, Fottellerlər, Kunlar, Maurerlər, Qurlar, Kikemarlar, Friklər, Reytenbaxlar, Ştrasserlər, Tseyzerlər, Vuxrerlər və s. mühacirət həyatının təfərrüatları, əlamətləri, hadisələri, ağrı-acıları, sevincləri haqda bu salnamələr dildən-dilə, nəsildən-nəslə keçərək, ağır dözum sınaqlarından mətanətlə çıxmış, öz xalqının xeyirxah, nəcib və həyatsevər xüsusiyyətlərini qoruyub saxlamış, milli adət-ənənələrinin yüksək mənəvi nüfuzunu təsdiqləmiş bu insanların həyatı barədə məlumatları özünə hopdurmuşdur. Üstündən yarım əsrdən də artıq bir vaxt keçəndən sonra belə həmin yubiley məruzəsinin yekun hissəsini həyəcansız oxumaq olmur: "... Qoy beləliklə ikinci yüzilliyə ümidlə, Allahın köməyilə alman koloniyalarının gələcək çiçəklənməsinə sarsılmaz inamla qədəm qoyaq!"*

*Nikbin ovqatlı Şults bilmirdi ki, bu şərəfli yubiley onun həmyerlilərinin əminamaqlıq epoxasına son qoyacaqdır. Onların həyatının məhvinə cəmisi 20 il qalırdı, ancaq bu qalan illəri də Sovet Hökümətinin ekstremist iqtisadi tədbirlərindən əziyyət çəkəcəkdilər. Onların dişlə-dırnaqla düzəltdikləri təsərrüfatlar müflis olacaq, xüsusi mülkiyyətləri məhv ediləcək, üzümlükləri, tarlaları, mal-heyvanları, bağ-bağatları, kolxoz və sovxozların mülkiyyətinə veriləcəkdi.*

Almanların Qafqaza, xüsusən Azərbaycana olan marağı qədim zamanlardan məlumdur. Hələ II Yekaterinanın dövründə Xanlar rayonunda Simens qardaşları Gədəbəy və Daşkəsən filiz mədənlərini ələ keçirərək dağ-mədən sənayesini inkişaf etdiriblər. 1865-ci ildə "Qafqaz geologiyasının atası" sayılan fon German Abix Qafqazın geoloji xəritəsini tərtib edib. 1870-ci ildə Bakıda neft sənayesinin inkişafı ilə əlaqədar alman səhmdarı Benkendorf Abşeron neft mədənlərinin müəyyən hissəsinin sahibi idi. Həmin dövrdən almanların Azərbaycana axını başlanıb. Təkcə bu faktı göstərmək kifayətdir ki, Azərbaycanda Sovet hakimiyyəti qurulduğu vaxt ərazimizdə 6 alman koloniyası mövcud idi. Həmin koloniyalar aşağıdakılardır: Helenendorf koloniyası (Xanlar), burada 5 min əhali yaşayırdı; Annenfeld, Helenendorf, Georqsfeld Şamxorda (Şəmkir); Qrünfeld Qazax - Ağstafa zonasında; Lüksemburq Gürcüstanın indiki Bolnisi rayonunda yerləşirdi. Tovuz, Qazax, Daşkəsən (Dəstəfur) rayonlarında Vürtemberq krallığından köçən "Şvab" köçəriləri məskunlaşmışdılar.

Daşkəsən rayonu özünün dağ mə'dən yataqları ilə bu gün də tanınmaqdadır. Daşkəsən rayonunun girəcəyində keçdiyimiz körpü o dəqiqə adama alman səliqəsi ilə tikilini xatırladır. Əlbəttə bu həqiqətdə belədir. Daşkəsən özünün nadir tapıntıları ilə hələ 1819-cu illərdə tədqiqatçıları özünə cəlb etmişdir.

O vaxtkı Qafqaz dağ mədəni işlər müdiri Eyxvald belə söyləmişdir. "Elizavetpoldan təxminən 30 km aralıda Qoşqar çayı yaxınlığında yerləşən Daşkəsən dağında çoxlu miqdarda qiymətli dəmir filiz yataqları vardır. Bunun çoxluğu və onun qazılması çox rahatdır."

Daşkəsəndə dəmir filizindən başqa kobalt və misin olması sonralar SIEMENS firmasını özünə cəlb etmişdir. 1860-cı illərdə SIEMENS qardaşları bu baxımdan Daşkəsəndə öz müəssisələrini qurmuşlar. Burda axtarış aparan və qazma ilə məşğul olanlar o zaman öz mə'dənlərini SIEMENS -ə vermişlər. Almanlar isə öz növbələrində bu qiymətli metalları aşkar etmələrini bir müddət gizli saxlamışlar. Əvvəlcə onlar metalları analiz üçün Berlinə yollamışlar. Həqiqətən metalların qiymətli olması təsdiqlənmiş, nəticədə 1885-ci ilə qədər xeyli gəlir əldə etmişlər.

Tovuzda, yəni Traubenfelddə xeyli miqdarda almanlar yaşamışlar. Onlar bu rayonun xasiyyətinə uyğun olaraq öz təsərrüfatlarını inkişaf etdirmişlər. Tovuz rayonunda yenicə bərpa olunmuş, yüzdən artıq yaşı olan orta məktəb məhz almanlar tərəfindən salınmışdır. Tovuzla qonşu olan Ağstafada nisbətən az alman ailələri məskunlaşmasına baxmayaraq, onlardan biri Anna Sikler demək olar ki, nəvə-nəticələri ilə öz doğma şəhərində yaşamağını davam etdirir. Ağstafa rayonunda yerləşən Marisovkada 181, Qrinfelddə 416 nəfər alman yaşamışdır. Ağstafa rayonunun bundan əlavə digər kəndlərində də almanlar yaşamışlar.

Qazax rayonunun Qrinfeld kəndində təxminən 410-a yaxın alman yaşamışlar. Bundan əlavə Alekseevkada 380, Elizavetigendə 156 və Eyqenfelddə isə 175 nəfərə yaxın almanlar yaşamışlar.

Sayına görə Helenendorfdan sonra Anino 1350, Qeorqevskidə 1030 nəfər almanlar yaşamışlar. Deyilənlərə görə almanlar Azərbaycanın cənubuna doğru, yə'ni Salyan rayonunun "5-ci şö'bə" adlanan kəndində və Lənkəranda məskunlaşmışlar.

İlk dəfə Azərbaycanda Almaniya dövlət nümayəndəliyinə rəhbərlik edən Teofil Ekk əsli Baltikyanı ölkədən olan bu şəxs konsul kimi 1926-cı ilə qədər fəaliyyət göstərmişdir. Onun qohumları isə 1926-cı ildən sonra da Azərbaycanda yaşamışlar. Təsadüf də olsa konsulun qohumları İ. Abix və K. Abix hələ 1844-cü illərdə Rusiyaya səfər edən, sonralar Xəzər dənizində Azərbaycan neftinin qeofizikasını öyrənən alim Q. Abixlə eyni familya olmaları da çox maraqlı və tarixi araşdırılmalıdır.

Azərbaycanda şərabçılığın inkişafı almanların respublikamıza gəlişiylə bağlıdır. Çar Rusiyası tərəfindən 1816-18-ci illərdə Vürtemberq krallığından olan alman koloniyaları "yerli əhaliyə əməksevərlik nümünəsi olmaq, əkinçilik və şərabçılığın ən yaxşı üsullarını öyrətmək üçün" gətirilmişdi. Gəlmələr cəmi 1.400 (6 min nəfər) ailə idi. 1917-ci ilin axırlarında Zaqafqaziyaya yalnız 486 ailə gəldi. 1842-ci ildə daha 10 vürtemberqli ailə gəldi. Beləliklə, cəmi 9 alman koloniyası yarandı. 1819-cu ildə alman koloniyaları Yelenendorf (1938-ci ildən Xanlar rayonu) şəhərinin əsasını qoydular. Elə həmin ildə də ikinci koloniya - Annenfeld (indiki Şəmkir rayonu) yaradıldı. 1925-ci ildə Azərbaycanda artıq 25 min alman yaşayırdı. Alman göçkünləri arasında Forerlər, Hümiellər, Fottelorlar, Tsayzeylər, Hürr qardaşları və s. məşhur adamlar vardı.

İxtisasca dərzi olan Helenendorf sakini Xristofor Forer 1847-ci ildə 0,7 desyatin (1 desyatin - 1,092 hektar) torpaq aldı və kənd təsərrüfatı ilə məşğul olmağa başladı. Bir desyatin torpaq sahəsini isə üzümlüklər üçün ayırdı. İlk dəfə 1856-cı ildə Xristofor Forerin bağçasının şərabı barama toxumu üçün Nuxaya (Şəki) gələn fransızların diqqətini cəlb etdi və bu, şərabçılığın inkişafına təkan verdi. 1860-cı ildə X. Forer öz sənəti ilə həmişəlik vidalaşdı, özünü üzümçülüyə və şərabçılığa həsr etdi. Yaşlı vaxtında Xristofor Forer oğlanlarını başına yığıb, bütün əmlakını onlara verdi və bu andan da şirkət "Xristofor Forerin və oğlanlarının təsərrüfatı" adlandırıldı.

Forerin oğlanları onun köməkçiləri oldular, üzümçülük və şərabçılığı genişləndirməyə, torpaq almağa başladılar. Əgər 1885-ci ildə təsərrüfatın 18 desyatin torpağı vardısa, 1896-cı ildə onlar 643 desyatin, 1897-ci ildə 740 desyatin torpaq sahəsi aldılar. 1882-ci ildə Xristofor Forer layiq olduğu istirahətə gedib, özünü bütün işlərdən azad etdi və mülkünü oğlanlarına - Xristofor, Fridrix, Qotlob və Henrixə verdi. O zamandan da təsərrüfat "Forer qardaşlarının təsərrüfatı" adlanmağa başladı. Forer qardaşları Kartaliniyadan və Kaxetiyadan fəhlələr dəvət etdilər. Şərab hazırlamaq və saxlamaq üçün Helenendorfda və Qarayeridə (indiki Samux rayonu) zirzəmilər düzəldildi. Helenendorfdakı zirzəmilərdə 100 min vedrə, Qarayeridə isə 34 min vedrə şərab saxlanılırdı. Şərab əsasən Rusiya şəhərlərinə (Tomsk, Sankt-Peterburq, Odessa və Vladivostoka), Almaniya, Hollandiyaya və digər ölkələrə satılırdı. Üzümlüklər hətta dağlıq Daşaltıda da (Şuşa yaxınlığında) salınmışdı.

Üzümçülüyün və şərabçılığın inkişafına Forer qardaşları ilə yanaşı Hümmel qardaşları da - Yakr, Albert, Georq və Qotlob güclü təsir etmişlər. Hümmel qardaşları Gəncədə şərabçılıq zavodu (keçmiş Nizami adına sovxoz, indiki 1 №-li şərab zavodu) tikmişlər.

Təəssüf ki, Sovet totalitar rejimi 70 il ərzində Forer və Hümmel qardaşlarının zavodları kimi müəssisə tikməmişdir. Onların zavodları me'marlıq, sənət nümünəsi idi. Əfsuslar olsun ki, biz onların ilkin görkəmini qoruya bilmədik.

Konyak hazırlamaq üçün 1892-ci ildə Helenendorfda konyak zavodu tikildi. Zavodun sahibi "Forer qardaşları" idi. İki destilə aparatı quraşdırılmışdı, onların məhsuldarlığı 100 vedrə 55 - 66 dərəcəli konyak spirti idi. Spirti 40 - 50 vedrəlik çəlləklərdə zirzəmilərdə saxlayırdılar. 1892-ci ildə 1.000, 1894-cü ildə 1.200, 1895-ci ildə 2.000, 1899-cu ildə 2.400 vedrə konyak hazırlandı. Təzə çəkilmiş konyak spirtinin vedrəsi 10 rubla, 3-illik konyak vedrəsi 20 - 22 rubla satılırdı. Oxucular üçün maraqlı olar ki, XX yüzilliyin sonlarında şərab və konyaklar çox böyük şöhrət qazanmış, beynəlxalq yarmarka və sərgilərdə dəfələrlə mükafatlandırılmışdırlar.

Şərab və konyaklar aşağıdakı mükafatları almışdılar:

1892-ci ildə Sankt-Peteburqda

dırılmasında bu binanın rol və əhəmiyyətini artırırdı. Bu yaşayış binası təkcə memarlıq əsəri olmaqla qalmayıb, həm də Azərbaycan bənnalarının, ilk növbədə məşhur usta Hənifənin yaradıcılığının səviyyəsindən xəbər verirdi. Beləliklə, XIX əsrin simasının dəyişilməsinə nəhəng töhfələr vermişdilər.

Fon der Nonnenin planına tənqidi yanaşmasına baxmayaraq, akademik Fətullayev etiraf edir ki, "buna baxmayaraq, plan irəliyə doğru iri bir addım idi. Onun ideyasında müsbət planlaşdırma qərarları dayanırdı. Bütün naqisliklərinə rəğmən, plan şəhərin gələcək layihələşdirmə işləri üçün əsas rolunu oynayırdı."

Şəhər xüsusi konsert-teatr binalarının yoxluğunu kəskinliklə duyurdu. Belə bir şəraitdə H.Z.Tağıyevin ağlına Bakı üçün "əsl teatr binası" tikdirmək fikri gəldi və 1892-ci ildə o, teatr layihəsini şəhər idarəsinə təqdim etdi. Teatr binasının tikilməsi üçün möhtəşəm buğda anbarının yerini təklif edən Tağıyev işləri alman mənşəli mühəndis-texnoloq Ferdinand Lekmula tapşırdı. Azərbaycanda bir çox mülki tikililərin inşaatı onun adı ilə bağlıdır. Əgər Bakıda Lemkul nə zamansa tikilmiş binanı teatr üçün uyğunlaşdırmalı idisə, Gəncə bir müddətdən sonra onun özü tərəfindən Gəncəçayın sahillərində tikilmiş Forer malikanəsini teatr binasına çevirmişdilər. Ancaq Forer malikanəsinin yarıalman, yarıflaman arxitekturaya malik fasadı qorunub saxlanmışdı. Mümkündür ki, yalnız şəxsi zövq deyil, həm də sifarişçilərin - Gədəbəy sənaye kompleksi sahiblərinin və sahibkarlardan Forer və Qummelin arzuları Lemkulu öz layihələrində roman-qotik üslubdan geniş istifadəyə vadar etmişdi.

Lemkulla əlaqədar Bakı milyonçusu H.Z. Tağıyevi xatırladığım üçün bu koloritli şəxsiyyətin olduqca maraqlı və zəngin tərcümeyi-halından bir hadisəni yada salmaq istərdim. Birinci dünya müharibəsinin başlanması xəbəri Tağıyevlər ailəsinə istirahət etdikləri Almaniyada, Marenbadendə çatır. Rus səfirin müharibə elan olunacağına dair xəbərdarlığından və Almaniyanı təcili tərk etmək tələbindən sonra Tağıyevin ailəsi Berlinə gəlir. Ancaq şəhər həyacanlı idi, vağzal meydanı ağzınacan kükrəyən adamlarla dolmuşdu. Almaniya ərazisində yaşayan rus tələbələri mexaniki şəkildə əsir vəziyyətinə düşmüşdülər. Tağıyevin qızı xatırladır: "Atamın Berlin bankında 100 min rubl pulu vardı, ancaq ona bircə qəpik də vermək istəmirdilər. Bank müdiriyyəti ilə uzun çəkçevirdən sonra bizim xərclərimizin ödənilməsinə razılaşdılar, ancaq pulu ələ verməkdən qətiyyətlə imtina etdilər. Onda atam Türkiyə səfirliyinə gedərək, vəziyyətin çıxılmazlığını onlara bildirdi. Türk səfiri bizə böyük qayğı göstərərək birbaşa Almaniya kayzeri II Vilhelmlə əlaqəyə girdi. Dedi ki, Rusiyanın ən məşhur adamlarından birinə, maqnat Tağıyevə Vətəninə, Bakıya qayıtmaq üçün kömək göstərmənizi xahiş edirəm. II Vilhelm Tağıyevi də, Azərbaycanı da yaxşı tanıyırdı, orada onun xeyli tələbəsi yaşayırdı, Benkendorfun, Simensin şirkətləri çiçəklənir, alman komersantları, mühəndis və texnikləri fəaliyyət göstərirdi. Kayzerin şəxsi göstərişinə əsasən bizə gəmi ayrıldı, üstəlik minadan qorunmaq üçün kreyser də verdilər. Biləndə ki, biz ali silkə mənsubuq, polis rəisi inad göstərdi: "Bir halda ki, aristokratsınız, deməli, sizi müşaiyət də etməlidirlər. Mənə adamlarınızın siyahısını göstərin." Atama da elə bu lazım idi. O, rus tələbələrindən ibarət 35 nəfərlik fir siyahı verdi - orada ermənilər də, gürcülər də, yəhudilər də vardı. Müharibə onları Berlində haqlamışdı və bu yolla atam onları əsirlikdən və pis günə düşməkdən xilas etdi."

Birinci Dünya müharibəsi başlayan zaman H.Z.Tağıyevin ailəsi Almaniyanın Marenbaden kurortlarında istirahət edirlərmiş. O dövürki Rusiya səfiri onu müharibənin başlanması ilə əlaqədar ölkəni tərk etməyi məsləhət görmüşdür. Ona görə də H. Z. Tağıyev öz ailəsi ilə birlikdə Berlinə getmişlər. Şəhərdəki qarmaqarışıqlıq, vağzallarda insan çoxluğu, meydanlardakı basırıqlar. Rusiya tərəfdən gəlmişləri demək olar ki, mühasirə şəraitinə salmışlar. Hacının qızının xatirələrində deyilir ki, o vaxt Berlindəki alman Bankı Hacının öz pulundan ona qəpik də vermək istəmirmiş. O zaman Hacı türk səfirliyinə gedib əhvalatı türk səfirinə danışmış, o da öz növbəsində həmən an Almaniyanın kay zeri II Vilhelm ilə birbaşa danışıq aparmışdır. Səfir Azərbaycandan gəlmiş neft maqnatı haqqında söyləyərək onun Bakıya dönmək istəməsini bildirmişdir. II Vilhelm H. Z. Tağıyev haqqında məlumatlı olduğundan və vətəni Azərbaycanda SIEMENS Bekkendorf firmaları ilə işlədiyini xatırlayaraq, kayzer öz sərəncamı ilə Hacıya ayrıca gəmi ayıraraq onu yola salmağı təşkil olunmasını şəhər rəhbərliyinə tapşırmışdır. Hacı varlı olduğundan onu müşayət edən adamları da gəmi ilə yola salmışlar. Qeyd etmək istərdim ki, 35 yaxın adamların arasında canlarını xilas edən rus, yəhudi, gürcü və erməni millətindən olanlar da var idi.

***Çingiz ABDULLAYEV,***
***texniki elmlər namizədi***